## Ölkənin rəsmi şəxslərinin tərcümeyi-halları

### Nikaraqua Respublikasının Vitse-prezidenti Alfredo Qomes Urkuyonun tərcümeyi-halı

1942-ci il avqustun 9-u Rivas şəhərində anadan olub. İlk ali təhsilini Rivas şəhərindəki Rosendo Lopes İnstitutunda alıb. Təhsilini Diriamba şəhərinin Pedaqoji İnstitutunda və Xinotepe şəhərinin Xuan Xose Rodrigez İnstitutunda davam etdirib;

1970-ci ildə Manaquanın Mərkəzi Amerika Universitetində baytarlıq və zooloq peşəsinə yiyələnmişdir;

2002-ci ildə "Korrupsiyaya Qarşı Mübarizə"də göstərdiyi xidmətlərə və vətənpərvərliyə görə Vətəndaş Cəmiyyəti tərəfindən təşəkkürnaməyə layiq görülüb;

2005-ci ildə oktyabrın 10-da Nikaraqua Milli Asambleyası tərəfindən Respublikanın Vitse-prezidenti seçildi;

Evlidir, altı övlad atasıdır.

**Nikaraqua Respublikasının Xarici İşlər Naziri Norman Xose Kaldera Kardenalın tərcümeyi-halı**

1946-cı il oktyabrın 21-də Nikaraquanın Manaqua şəhərində anadan olub. İlk təhsilini Kalasanz Kollecində alıb və Qranadanın Mərkəzi Amerika Kollecində davam etdirib;

1968-ci ildə Leksinqton şəhərinin Hərbi Ventvors Akademiyası və Gənclər Kollecinin Müəssisələr Administrasiyası üzrə texnik peşəsinə yiyələnib;

1975-ci ildə Mərkəzi Amerika üçün Nikaraqua İxracat Mərkəzinin administratoru seçildi;

1980-84-cü illərdə Quatemalada Beynəlxalq Ticarət üzrə məsləhətçi kimi xidmət göstərir;

1984-cü ilin yanvar ayında Hondurasda Baş Texniki Məsləhətçi təyin olunur;

1996-cı ildə Beynəlxalq Ticarət Mərkəzində fəaliyyətə başlayır;

1999-cu ildə Ticarət, Sənaye və İnkişaf Nazirliyinə təyin olunur;

2002-ci il yanvarın 10-u Xarici İşlər Nazirliyində Nazir vəzifəsinə təyin olunur;

Evlidir, üç övladı var.